"Təsdiq edirəm"
Azərbaycan Dövlət Dəniz Akademiyasının
Tədris və tərbiyə işləri üzrə prorektoru
_____ prof. Z.Z.Şərifov
"28" _____ 2018-ci il

Azərbaycan Dövlət Dəniz Akademiyasında
buraxılış Yekun Dövlət Attestasiyasının keçirilməsi haqqında

ƏSASNAMƏ

I. Ümumi müddəalar

1. Bu Əsasnamə Azərbaycan Respublikasının Təhsil Qanununun, Azərbaycan Respublikasının Təhsil Nazirinin 27 yanvar 1997-ci il tarixli 54 nömrəli əmri ilə təsdiq olunmuş "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında əsasnamə"yə və Beynəlxalq Dəniz Təşkilatının müvafiq rəhbər sənədi "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair 1978-ci il tarixli əlavələr edilmiş beynəlxalq konvensiya"nın (STCW-78) AII/1, AII/2, AIII/1, AIII/2, AIII/6, AIII/7 bölmələrinin tələblərinə uyğun olaraq, bakalavriat proqramı üzrə buraxılış yekun dövlət attestasiyasının (BYDA) keçirilməsini tənzimləyir.

2. Azərbaycan Dövlət Dəniz Akademiyası (ADDA) buraxılış yekun dövlət attestasiyasının Ali təhsilin pilləsinin dövlət standartı, bakalavriat səviyyəsinin ixtisas üzrə təhsil proqramlarına və bu Əsasnaməyə uyğun qaydada keçirilməsini təmin edir.

3. ADDA-da tələbələrin buraxılış yekun dövlət attestasiyası təhsil proqramının mənimsənilmə səviyyəsini müəyyənləşdirmək, məzuna müvafiq ixtisas dərəcəsi vermək məqsədi ilə bakalavriat səviyyəsinin ixtisas üzrə təhsil proqramlarına və tədris planına əsasən **ixtisas-peşə hazırlığı bölümünə daxil olan fənlərdən (fənlər ali təhsi müəssisəsi tərəfindən müəyyən edilir) buraxılış yekun dövlət imtahanı** formasında keçirilir.

4. Təhsil proqramının bütün tələblərini yerinə yetirmiş və tədris planında nəzərdə tutulmuş fənlər və təcrübələr üzrə müəyyən olunmuş kreditləri qazanmış tələbələr yekun attestasiyaya buraxılırlar.

5. Buraxılış yekun dövlət imtahanı çoxballı qiymətləndirmə sistemi ilə aparılır və tələbənin toplaya biləcəyi balların maksimum miqdarı 100-ə bərabərdir.Dövlət imtahanı yazılı-şifahi qaydada təşkil olunur. İmtahanda tələbəyə ixtisas-peşə hazırlığı fənnlərindən 5 (beş) nəzəri sual (istismar səviyyəsində STCW-78-in AII/1, AIII/1, AIII/6 bölmələrinə əsasən) və 1 (bir) praktiki tapşırıq (idarəetmə səviyyəsində STCW-78-in AII/2, AIII/2, AIII/6 bölmələrinə əsasən) verilməsi nəzərdə tutulur. Buraxılış yekun dövlət imtahanında tələbənin biliyi toplanmış yekun bala görə aşağıdakı cədvələ uyğun olaraq qiymətləndirilir və nəticələr imtahan günü tələbələrə elan olunur:

91-100 bal	"əla" – A
81-90 bal	"çox yaxşı" – B
71-80 bal	"yaxşı" – C
61-70 bal	"qənaətbəxş" – D
51-60 bal	"kafi" – E
51 baldan aşağı	"qeyri-kafi" – F

6. Dövlət İmtahanının qiymətləndirmə meyyarı: nəzəri sualların (istismar səviyyəsi üzrə) hər biri 15 baladək, praktiki sual (idarəetmə səviyyəsi üzrə) isə 25 baladək qiymətləndirilir. Tələbə o zaman yekun attestasiyadan keçmiş hesab edilir ki, o imtahandan 51 bal toplamış olsun. Nəzəri suallardan 26 baldan az toplayan tələbələr növbəti mərhələyə buraxılmır və yekun dövlət imtahanından "qeyri-kafi" qiymət almış hesab olunur.

7. İxtisas üzrə buraxılış yekun Dövlət imtahanlarının proqramları, eləcə də bu imtahanların qiymətləndirmə meyarları komissiya sədrlərinin iştirakı ilə müzakirə olunur və ADDA-nın elmi şurası tərəfindən təsdiq edilir.

8. Ayrı-ayrı ixtisaslar üzrə buraxılış yekun dövlət imtahanı Dövlət Attestasiya Komissiyası (DAK) tərəfindən aparılır. DAK-ların sədrləri ADDA-da işləməyən yüksək ixtisaslı mütəxəssislər sırasından, ardıcıl 3 (üç) ildən çox olmamaq şərti ilə, ADDA-nın təqdimatı əsasında "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC tərəfindən təyin olunurlar.

9. DAK-ın üzvlüyünə ADDA-nın elmi-pedaqoji heyətinin üzvləri, müvafiq idarə və müəssisələrin aparıcı mütəxəssisləri (4 nəfərdən az olmayaraq) cəlb edilir. DAK-ın tərkibi ADDA-nın rektoru tərəfindən təsdiq edilir. DAK-ın birinci iclasında onun tərkibindən komissiyanın katibi seçilir. Katib DAK-ın iclaslarının protokollarını tərtib edir.

10. DAK-ın səlahiyyət müddəti 1 (bir) təqvim ilidir.

11. Yekun attestasiya haqqında qərarlar DAK üzvlərinin 2/3 (üçdə iki) hissəsi iştirak etdikdə (sədrin iştirakı mütləqdir), sadə səs çoxluğu ilə qəbul olunur. Səslər bərabər olduqda sədrin səsi həlledici sayılır.

12. DAK-ın qərarı əsasında məzunlara müvafiq ixtisas dərəcəsi, ali təhsil haqqında diplom və diploma əlavə verilir. Diploma əlavədə təhsil proqramında nəzərdə tutulan fənlər üzrə tələbənin topladığı ballar, təcrübələrin, yekun attestasiyanın nəticələri və ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG) yazılır. Diplomun və diploma əlavənin verilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 29 aprel tarixli 82 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin bakalavr və magistr səviyyələrində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydası" ilə tənzimlənir. Təhsil müddətində keçdiyi bütün fənlərdən və təcrübədən qiyməti 71-dən az olmayan, təhsil müddətində "C" və "B" qiymətlərinin sayı bütün qiymətlərinin sayının 25 %-dən çox olmamaqla, bütün imtahanlardan yalnız "C", "B" və "A", buraxılış yekun dövlət attestasiya sınaqlarından isə yalnız "A" qiymətlər almış məzunlara fərqlənmə diplomu verilir.

13. Yekun attestasiyada üzrlü səbəbdən iştirak etməyən tələbəyə ödənişsiz qaydada DAK-n fəaliyyət dövründə bir dəfə yenidən attestasiyada iştirak etmək imkanı yaradılır.

14. Müxtəlif səbəblərdən yekun attestasiyada iştirak etməyən və ya qeyri-kafi qiymət alanlara Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 21 yanvar tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"na əsasən arayış verilir və onlar bu Qaydaya uyğun olaraq ali təhsil müəssisəsinin müəyyən etdiyi vaxtlarda növbəti 4 (dörd) təqvim ili müddətində keçirilən yekun attestasiyada iki dəfə olmaqla iştirak edə bilərlər. Bu zaman tələbənin ödənişinin məbləği ixtisas (ixtisaslaşma) üzrə attestasiya aparılan il üçün müəyyən olunmuş təhsil haqqını 60-a bölərək alınan nəticəni yekun attestasiyaya ayrılan kreditlərin sayına vurmaqla müəyyənləşdirilir. Həmin müddətdə yekun attestasiya aparılan ixtisas üzrə buraxılış olmadığı halda, məbləğ ona yaxın ixtisasa görə ADDA tərəfindən müəyyən olunur. Tələbə ali təhsil müəssisəsini bitirmək üçün ixtisasın normativ təhsil müddətindən sonrakı 4 (dörd) ildə (həqiqi hərbi xidmət müddəti nəzərə alınmamaqla) yekun attestasiyada iştirak etmədikdə və ya attestasiyadan keçmədikdə o, məzmununda əsaslı dəyişikliklər edilən peşə hazırlığı fənlərindən əvvəllər qazandığı kreditləri itirir və ADDA-ya bərpa olunaraq mövcud qaydalara əsasən həmin kreditləri yenidən yığmalıdır.

15. DAK sədrləri hər il komissiyanin fəaliyyəti haqqında ADDA-nın Elmi Şurasına hesabat verirlər. Bu hesabat yekun dövlət attestasiyası başa çatdıqdan sonra 3 (üç) ay müddətindən gec olmayaraq, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nə təqdim edilir.

16. Yekun dövlət attestasiyası başa çatdıqdan sonra 3 iş günü ərzində DAK-ın qərarlarına əsasən müvafiq ixtisaslar üzrə bakalavriat dərəcəsi verilmiş tələbələrin ADDA-nı bitirməsi haqqında fakültə dekanlarının təqdimatları əsasında rektor əmr verir.

II. Buraxılış yekun dövlət imtahanının təşkili

1. Aşağıdakı sənədlər ADDA-nın Elmi Şurası tərəfindən təsdiq olunur və BYDA-nın başlamasından ən azı 4 ay əvvəl tələbələrin nəzərinə çatdırılır:
- Buraxılış yekun dövlət imtahanının proqramı
- Dövlət imtahanının nəticələrinin qiymətləndirilməsi qaydası

2. Buraxılış yekun dövlət imtahanlarına hazırlığa və təşkilati işlərə rəhbərliyi Tədris qeydiyyat şöbəsi həyata keçirir.

3. Fakültə dekanları buraxılış yekun dövlət imtahanlarının (günü, saatı və yeri göstərilməklə), ixtisas kafedra müdirləri imtahanqabağı məsləhət saatlarının qrafiklərini müəyyənləşdirir, Tədris və tərbiyə işləri üzrə prorektor təsdiq edir.

4. Tələbələrə dövlət imtahanı proqramına daxil edilmiş suallar üzrə məsləhət saatlarının keçirilməsini ixtisas kafedraları təşkil edir. Məsləhət saatlarının keçirilməsinə nəzarəti fakültə dekanları həyata keçirir.

5. Tələbə buraxılış yekun dövlət imtahanının nəticələrindən narazı qaldıqda, ərizə ilə ADDA-nın rektoruna müraciət edə bilər. Ərizə dövlət imtahanının nəticələrinin elan edildiyin vaxtdan 1 iş günündən gec olmayaraq verilir. Həmin müraciətə rektorun tapşırığı əsasında DAK tərəfindən tələbənin iştirakı ilə yenidən baxılır.

6. Buraxılış yekun dövlət attestasiyasında rabitə vasitələrindən istifadə etmək qəti qadağandır.

7. Tələbələrin qadağan olunmuş vasitələrdən istifadəsi aşkar edildikdə, DAK-sı tərəfindən akt tərtib edilir, protokolda müvafiq qeydlər aparılır və tələbəyə "q-kafi" qiymət verilir.

8. Buraxılış Yekun Dövlət Attestasiyasının elektron və distant formada keçirilməsi qadağandır.

"Azərbaycan Dövlət Dəniz Akademiyasında buraxılış Yekun Dövlət Attestasiyasının keçirilməsi haqqında əsasnamə" ADDA-nın Elmi Şurasının "27" dekabr 2018 - ci il tarixli (3 nömrəli protokol) iclasında müzakirə olunub və təsdiqlənib.